Adımız məfkurəmizdir
№44 9 – 15 dekabr 2025-ci il
Türküstan
www.turkustan.az

# Basaran düzəngahı-əski Türk izləri



Qismət Yunusoğlu,
Bakı Dövlət Universitetinin müəllimi

***Savur/Sabur/Sibir düzənliyinin cənubunda Abu-Su/Ob və İrtış çayları arasında 83 min kv.km sahəni tutan, 10 min illik tarixi məskunlaşma və 5 min illik yaşayış ocaqlarına malik olan, XV-XVI əsrlərdən Sabur/Sibir xanlığının ərazisinə daxil olan Basaran düzəngahı Türk xalqlarının "Böyük köçü" yolunun üzərində yerləşdiyindən, Ust Tunc dövrü mədəniyyətinin (1878-ci ildə 1-ci Cənubi Sibir ekspedisiyası zamanı üzə çıxarılmış) arxeoloji zənginliyini özündə yaşatmaqla, həm də siyasi-hərbi hadisələrin meydanına çevrilmişdir.***

Hövzənin əski Türkdilli etnobirliklərinin məskunlaşması barədə ərazidə təsdiqedici soğrafi adlarla yanaşı, kifayət qədər tarixi-xronoloji sənədli mənbələr də (alman təbiətşünası D.Q.Messerşmidt (1685-1735) Rusiya çarı I Pyoturun xahişi ilə Savur/Sabur/Sibir bölgəsinin (Aral/Ural dağlarından Yeni-Su/Yenisey çayınadək) coğrafiyasını, təbii tarixini öyrənmiş, arxeoloji tədqiqatlar aparmış, yerli xalqlarının dillərini və gələnəklərini araşdırmış, 10 cildlik "Sibirin icmalı" toplusunu hazırlamışdır) qalmaqdadır. Təhlillər göstərir ki, bu toponimlərin etimologiyası arxeoloq-tarixçi, linqvist-dilçi və coğrafiyaşünas-səyyahların elmi-nəzəri və ədəbi əsərləri ilə təsdiqlənir, eləcə də, şifahi və tarixi mərhələlər üzrə filoloji dil dəyişikliyi göstərilir (N.A.Baskakovun (1905-1996) "Türk dilləri" əsəri, V.Y.Butanayevin (1946-2023) "Qırğızların dövlət quruculuğu" kitabı...). Bu mənbələr qiymətli tarixi-sənədli məlumatlar kimi qəbul edilir. Avrasiya qurusunda Türkdilli qəbilə-tayfa İttifaqlarının bu mənada dəyərləndirilməsi "Türk dünyasının coğrafiyası"nda xüsusi elmi-nəzəri əhəmiyyət kəsb edir.

1739-cu il 25 iyunda Ər Qurd/İrkutsk bölgəsinin vitse-qubernatoru olmuş İsveç mənşəli Lorents Lonq (1690-1752) yerli əhalinin yazılı və şifahi dil irsinin öyrənilməsi, tədqiqi və kökənlilərin iqtisadi-ticarət münasibətlərinin qiymətləndirilməsi sahəsində mühüm xidmətlər göstərmiş, ticarət karvanlarına rəhbərlik etmişdir.

Hələ səyyah ikən L.Lanq 1715-1718-ci illərdə bu ərazilərdə Basaran Türklərinin (güclü, cəngavər, məğlubedilməz olduqları üçün belə adlanıb, "basılmaz" mənasında) yaşadıqlarını, milli-dövlətçilik quruculuğu, hərbi-iqtisadi gücü, mənəvi-mədəni dəyərləri...barədə məlumat vermişdir.

Ər Qurd Türk dilli xalqlarda mistik-fəlsəfi rəmzi-"Qurd" totemi əsasında yaranmış, milli adqoymalarda Ər, Alp...söz önlərindən daha çox istifadə edildiyinə (Ər Sak/Arsak, Ər Dış/İrtış...) bir nümunədir. Ər Qurd çayının əmələgətirdiyi Yandaş qurusunda salınan bu Türk yaşayış məntəqəsi 1662-ci ildən Ər Qurd/İrkutsk adlanır...

Dünyaca məşhur alman səyyah, təbiətşünas alim A.V.Humbolt (1768-1859) 1829-cu ilin iyun-avqust aylarında Basaran düzəngahında olarkən onu yerli əhali tərəfindən üç-Türk, Moğol və rus dillərində qarşılamışdır.

Basaran düzənlyi hövzəsinin əski Türkdilli xalqlarının (xüsusilə, Cənubi Səlcuqların) məskunlaşma əraziləri olduğundan yer adlarının etimoloji mənası, morfogenezisi, məkan arealının tarixi-coğrafi və linqvistik tərkibi Altay etnoailəsinin dillərinə aid olması toponimlərin etimoloji təhlilində ifadə olunmuşdur. Bu mənada Narın/Narım diyarı və Basaran düzənliyini aypara şəklində əhatə edən yaşayış məntəqələrinin oro-antrotoponimləri (İnjin, Timolqın, Qalqınaq, Qarqaldı, Teykin, Marqan, Huntuki...), hidronimləri (Sula-Eleter, Qıqıltur və Tuxsaqat gölləri, Vasyuqan, Parabel, Kenqa, Şiş, Taras...çayları) xüsusilə seçilir (etnoqraf-tədqiqatçı N.P.Qriqorovskinin (1830-1883) 1882-ci ildə tərtib etdiyi hesabat səciyyəli topoqrafik xəritəsi, Rusiya Coğrafiya Cəmiyyətinin Qərbi-Sibir bölməsinin bülletenində çap edilmiş "Narım diyarının oçerki məqaləsi"...timsalında ).

***"Narın/Narım" orortoponimi əski Türk dillərində işlədilən "nərmə-nazik" sifətin adlıq halda ifadəsi, yerli dialekt-şivə tələffüzü nəticəsində fonetik quruluşudur. Ərazi irili-xırdalı, enli-ensiz...çoxsaylı çay qolları ilə parçalandığından, əriş-arğac doğrandığından və "Narın/Narım" adlanması relyef-landşaft örtüyünə uyğundur (eləcə də, Moğolca "narın/narin"-"ensiz","nazik", Kalmık dilində də "hazik"...mənasındadır).***

Cənubi Səlcuqların dilində "nyar"-"bataqlıq" mənasındadır, Ket çayının (uzunluğu 1621 km) Abu-Su/Ob çayına töküldüyü yerdə salınıb, hər tərəfi bataqlıqdır. "Ket/Ketlər" sözü əski Yeni Su-Yenisey dil ailəsi danışığında "insan", "nsanlar", "əhali toplumu" anlamına uyğundur və kənd yaşayış məntəqəsinin etimoloji kökü bu mənaya uyğundur. "Ket" hidronimi bu çayın sahilində yaşayan topluima görə həm də etnonim kimi qəbul edilir (linqvist, şair, YUNESKO yanında onomastika üzrə Beynəlxalq komitənin fəxri üzvü V.A.Nikonov (1904-1998), "Qısa coğrafiya ensklopediyası", Moskva ş., V cild, 1966).

Bu qədim Türk yurdları səltənətinə qonşu olan Hun-Quz/-Qırğız (əski tarixi-xronoloji mənbələrdə Savur-Sabir/Sibir Türkləri ümumilikdə Qırğızlar adlanıb) hüdudlarındakı Narın çökəkliyi, eyniadlı vilayət və mərkəzi şəhər, Narın çayı (sağ sahilində eyni adlı şəhər yerləşir)...toponimlərinin mənşəyinin etimoloji köklərinin Bəyaz Türklərini əski dillərindən rişələndiyi şübhə doğurmur.

1871-ci ildə rus general-kartoqrafı A.A.İlyin (1832-1889) tərəfindən işlənilmiş Tomsk quberniyasının böyük xəritəsində Narın qəzası hüdudlarında əski Türkdilli toponimlərə (1596-cı ildə məskunlaşmış Narın kəndi, Narınçayı sahilindəki Qarasak kəndi, Ket çayı kənarındakı Toğur kəndi, Qaraqala şəhəri, Parabel çayı mənsəbindəki eyni adlı yaşayış məntəqəsi...) geniş yer vermişdir.

"Parabel" toponini mnilliklər boyunca davamlı dialekt-.şivə dəyişikliyinə məruz qalaraq etimoloji mənaca Cənubi Səlcuqların dilində "Var kara" sözlərindən yaranmaqla "Böyük kənd" anlamındadır, ilkin olaraq "Kara kənd/Qara ket" kimi tələffüz edilmiş, yaranmış, sonradan təhrif edilərək (mənaca dəyişməmiş) indiki adı qazanmışdır. "Qara" sözönü ÜmumTürk dialektində eyni mənanı (böyük, uca, iri...) daşıdığı üçün Avrasiya quruusnun coğrafi adları sistemində bütün məkanlar üzrə rast gəlinir.

E.ə. I mnilliyin sonundan başlayaraq Altay dağları ətəklərindən Bəyaz Türklərin quzey bölgələri sahillərinə (Yamal yarımadasınadək) qədər geniş düzəngahlar və hissələri (ada, yarımada, dəniz, körfəz, çaylar, göllər, tirələr, yaşayış məntəqələri...) Hun-Quz-Sak...tayfaları/qəbilələri tərəfindən məskunlaşmış, əski Türkdillilərin filoloji-dil üslubuna uyğun toponimlərlə adlanmış və bölgəyə ilk insan ləpirləri e.ə.II minilliyin ortalarında dəymişdir ("Orta Vasyuqan-300 il" kitabı (tarixi oçerk), professor V.P.Zinovyevin redaktorluğu ilə çap edilib, Tomsk ş. , 2000-ci il).

Bəşər tarixinin bu mərhələsində Gülay təbəddülat dövrü mədəniyyətinin yaranaması və formalaşması Savur-Sabir/Sibir ərazilərində (Abu-Su/Ob çayı hövzəsində) əski Türkdilli xalqlarla bağlılığına dair nümunələr memarlıq-rəssamlıq üslublu nümunələri, dekorativ sənət təsvirləri, əmək və silah alətləri, yazı və oyma daş lövhələri...tarixi-arxeoloji tədqiqatlar zamanı üzə çıxarılmışdır İlk növbədə dini-sakral təlimlərin fəlsəfi-nəzəri əsasları-Şamanizmqəbul edilmiş və güclü mistik cərəyan kimi milli-mənəvi şüurun bütövlüyünə xidmət etmişdir.



***Basaran hövzəsinin yer adları Cənubi Sabur/Sibir xalqlarının, eləcə də, Cənubi Səlcuqların/Selkupların, Hunların/-Hantıların dillərində əski Proto-Türk şifahi dil fonetikasına, mistik və dini-sakral inanclarının ifadəsinə, coğrafi mühitin koloritinə, rəvayət və əfsanə mövzularının süjetinə...uyğun olaraq yaranmış, kökənli xalq dilinin zənginliyinə nümunə olmuşlar. Abu-Su/Ob və İrtış çayları boyunca minilliklər ərzində yaşamış Hun-Quz-Sak...soylu kökənli qəbilə-tayfa qovmlərinin linqivistik-toponimik yaradıcılığı, bölgə xalqlarının dil fonetikası barədə rus dilçisi-linqvisti, akademik A.Y.Anikin, Tomsk Dövlət Pedaqoji Universitetinin professoru N.A.Tuçkova....qiymətli elmi-nəzəri mülahizələr irəli sürmüş və linqvistik lüğətlər işləyib hazırlamışlar.***

Oxu, oxut, abunə ol!